

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 172 (23.334)

*14 sentyabr 2019-cu il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulan 208 nömrəli orta məktəbdə yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısına ətraflı məlumat verilərək bildirilib ki, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına əsasən 2019-cu ilin mayında məktəbin mövcud binası sökülərək yerində yenisi inşa olunub. 360 şagird yerlik yeni məktəb binası müasirliyi ilə seçilir. Burada müxtəlif fənn otaqları bütün zəruri inventarla təchiz olunub.

* * *

Sentyabrın 13-də Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

* * *

Dövlətimizin başçısı həmin gün Bakı şəhərinin Nərimanov rayonunda yenidən qurulan Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların açılışında iştirak edib.



## Şərur Sənaye Məhəlləsinin yaradılması və “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda Şərur Sənaye Məhəlləsi yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədi ilə Şərur Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı müəssisələri, habelə xidmət müəssisələri yaradılır;

2.2. Şərur Sənaye Məhəlləsinin fəaliyyətinin təşkili, tənzimlənməsi, idarə olunması və inkişafı ilə bağlı tədbirləri Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi idarəedici təşkilat həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. Şərur Sənaye Məhəlləsinin fəaliyyəti ilə bağlı müvafiq torpaq sahəsinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulması, eləcə də iştirakçıların fəaliyyətinin dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görsün;

4.2. Şərur Sənaye Məhəlləsində istehsal olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Şərur Sənaye Məhəlləsinin fəaliyyətinin təşkilini, həmin ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulmasını təmin etmək məqsədi ilə ilkin olaraq Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 5-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

7. “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1173) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.3-cü bəndə “İqtisadiyyat Nazirliyi” sözlərindən sonra “(Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla)” sözləri əlavə edilsin;

7.2. 1.4-cü bəndə “Açıq Səhmdar Cəmiyyətinə” sözlərindən sonra “(Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla)” sözləri əlavə edilsin;

7.3. 3-cü hissəyə “İqtisadiyyat Nazirliyi” sözlərindən sonra “(Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələrinə münasibətdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti)” sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 13 sentyabr 2019-cu il*

## “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi”nin təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun işçilərinin say həddi 8 ştat vahidi müəyyən edilsin.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun xərclər smetasını və ştat cədvəlini müəyyən etsin;

3.2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun maddi-texniki təminatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun dövlət qeydiyyatına alınmasını təmin etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**
*Naxçıvan şəhəri, 13 sentyabr 2019-cu il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondu (bundan sonra – Fond) “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 07 sentyabr tarixli 397-05/S nömrəli Sərəncamına uyğun olaraq yaradılmışdır.

1.2. Fond dövlət sifarişi əsasında təbiət, texniki, humanitar və ictimai sahələr üzrə elmi tədqiqatları və digər elmi tədbirləri qrant şəklində məqsədli maliyyələşdirməklə, elmin inkişafına xidmət edən qeyri-kommersiya qurumu olan hüquqi şəxsdir.

1.3. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Nizamnaməni rəhbər tutur.

1.4. Fond bu Nizamnamədə nəzərdə tutulmuş vəzifə və funksiyalarını yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Fond öz fəaliyyətini şəffaflıq, əməkdaşlıq, qarşılıqlı məsuliyyət və hesabatlılıq prinsipləri əsasında qurur.

1.6. Fond müstəqil balansa, xəzinə hesabına, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, üzərində Dövlət gerbinin təsviri və öz adı olan möhürə, müvafiq ştamp və blanka malikdir.

1.7. Fondun fəaliyyəti və saxlanma xərcləri dövlət büdcəsi və qanunvericiliklə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. Fond Naxçıvan şəhərində yerləşir.

### 2. Fondun əsas məqsədi və vəzifələri

2.1. Fondun əsas məqsədi Naxçıvan Muxtar Respublikasında elmi müəssisə və təşkilatlar, təhsil müəssisələri, digər müvafiq qurumlar və fiziki şəxslər tərəfindən təqdim olunmuş təbiət, texniki, humanitar və ictimai elmlər

*Ardı 2-ci səhifədə*

sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi, eksperimental, akademik, innovativ, nəzəri elmi-tədqiqat proqramları və layihələrini və digər elmi tədbirləri (bundan sonra – layihələr) qrant şəklində ünvanlı maliyyələşdirmək, alimlərin elmi fəaliyyətini stimullaşdırmaq və onlara azad yaradıcılıq imkanı yaratmaq, habelə elm müəssisələrinin fəaliyyətinin təkmilləşməsini nəzərdə tutan və inkişafını dəstəkləyən tədbirləri həyata keçirmək yolu ilə Naxçıvan Muxtar Respublikasında elmi-texniki potensialı qorumaq və inkişaf etdirmək, iqtisadiyyatın inkişafında bu potensialdan səmərəli istifadə etmək, mühüm sosial problemlərin həllində elm və texnikanın rolunu yüksəltmək və dövlətin elmi informasiya və innovasiya ehtiyatlarını artırmaqdır.

2.2. Fondun vəzifələri aşağıdakılardır:

2.2.1. elmin inkişafı ilə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.2.2. elmin inkişafı üzrə milli strategiyaların məqsədlərinə müvafiq olaraq təkliflər irəli sürmək, layihələr hazırlamaq, onların həyata keçirilməsini təmin etmək;

2.2.3. Naxçıvan Muxtar Respublikasında elmi tədqiqatların stimullaşdırılmasını, təbii resursların, mədəni və tarixi irsin öyrənilməsinin gücləndirilməsini, elmin müxtəlif sahələrində aparılan araşdırmaların səmərəliliyinin artırılmasını, ölkə və dünya elmi məkanında Naxçıvan Muxtar Respublikasında əldə edilmiş elmi nəticələrin layiqincə təmsil olunmasını öz səlahiyyətləri daxilində təmin etmək;

2.2.4. elm sahəsində araşdırmaların aparılması, beynəlxalq təcrübənin öyrənilməsi məqsədi ilə elmi tədbirlərin (konfransların, simpoziumların, seminarların və s.) təşkili üzrə layihələri dəstəkləmək;

2.2.5. öz fəaliyyəti haqqında ictimaiyyətə müntəzəm məlumat vermək;

2.2.6. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

### 3. Fondun funksiyaları

3.1. Fond bu Nizamnamə ilə müəyyən olunmuş vəzifələrinə uyğun olaraq aşağıdakı funksiyaları yerinə yetirir:

3.1.1. bu Nizamnaməyə uyğun olaraq dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsini təşkil edir;

3.1.2. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və elmi-mədəni inkişafına müvafiq olaraq müsabiqə üçün prioritet elmi istiqamətləri müəyyən edir;

3.1.3. layihələrin idarə edilməsi qaydalarını və maliyyələşdirilməsi məqsədi ilə müsabiqələrin keçirilməsi qaydalarını müəyyən edir;

3.1.4. müsabiqəyə təqdim edilən layihələrə baxılması qaydalarını müəyyən edir;

3.1.5. müsabiqə yolu ilə layihələrin seçilməsini təşkil və təmin edir;

3.1.6. qanunvericiliyə, o cümlədən bu Nizamnaməyə uyğun olaraq layihələri maliyyələşdirir, Fond tərəfindən ayrılan vəsaitin təyinatı üzrə istifadəsinə nəzarət edir, həmin vəsaitdən təyinatı üzrə istifadə edilmədikdə maliyyələşdirmənin dayandırılması və verilən vəsaitin qaytarılması üçün qanunvericiliyə uyğun tədbirlər görür;

3.1.7. digər qrant ayıran yerli və xarici qurumlarla və şəxslərlə birgə elmi-tədqiqat layihələrinin maliyyələşdirilməsi barədə qərarlar qəbul edir;

3.1.8. qrant layihələri çərçivəsində elmi məqsədlər üçün tələb olunan əsas vəsaitləri (elmi cihazları, avadanlıq və qurğuları, elmi fəaliyyət üçün məmulatları, ləvazimat və qeyri-maddi aktivləri və s.), iş və xidmətləri qanunvericiliyə uyğun satın alaraq, layihə icraçılarına təyinatı üzrə istifadə üçün təhvil verir;

3.1.9. müsabiqəyə təqdim edilən və icrası başa çatmış layihələrin ekspertizadan keçirilməsini təşkil edir, qrant yolu ilə yerinə yetirilmiş elmi tədqiqat işlərinin nəticələrini müzakirə edir və müvafiq hesabatları qəbul edir;

3.1.10. dövlət orqanları ilə elmi müəssisə və təşkilatlar arasında əməkdaşlığın genişləndirilməsinə yardım edir;

3.1.11. elmi-tədqiqat layihələrinin dəstəklənməsi və maliyyələşdirilməsi ilə bağlı ictimai rəyin öyrənilməsini təşkil edir;

3.1.12. bu Nizamnaməyə müvafiq olaraq elmi müəssisə və təşkilatlarına, digər qurumlara və fiziki şəxslərə müsabiqə əsasında maliyyə dəstəyinin göstərilməsi üçün müvafiq tədbirləri həyata keçirir;

3.1.13. maliyyə yardımından istifadə etmək üçün elmi müəssisə və təşkilatlarına, digər qurumlara və fiziki şəxslərə bərabər şərait və imkanlar yaradılmasını təmin edir;

3.1.14. layihələrin həyata keçirilməsi üçün Fondun vəsaitinin xərclənməsi istiqamətlərini müəyyən edir, bununla əlaqədar zəruri tədbirləri həyata keçirir;

3.1.15. layihələrin həyata keçirilməsi məqsədi ilə müsabiqələri təşkil edir və bununla bağlı:

3.1.15.1. elanlar verir;

3.1.15.2. layihələr üzrə vəsaitin miqdarını müəyyənləşdirir;

3.1.15.3. layihələrin təqdim olunma formalarını, müddətlərini və zəruri sənədlərin siyahısını müəyyən edir;

3.1.15.4. təqdim olunmuş layihələrin qiymətləndirilməsi işini həyata keçirir;

3.1.15.5. layihələri məqbul hesab edilən elmi müəssisə və təşkilatlarının və digər qurumların nümayəndələri və fiziki şəxslərlə şifahi müsahibə keçirir;

3.1.15.6. müsabiqədə qalib gəlmiş layihələri müəyyənləşdirir və müvafiq qərar qəbul edir;

3.1.15.7. müsabiqənin qalibi ilə vəsaitin istifadəsi şərtləri haqqında müqavilə bağlayır;

3.1.15.8. müsabiqəni baş tutmamış elan edir;

3.1.15.9. müsabiqənin nəticələri barədə məlumatları açıqlayır;

3.1.16. Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsində elmin inkişafına maliyyə yardımının göstərilməsi və Fondun saxlanılması üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü ilə bağlı təkliflərini aidiyyəti üzrə təqdim edir;

3.1.17. layihələrin həyata keçirilməsi ilə bağlı elmi müəssisə və təşkilatlarının, digər qurumların və fiziki şəxslərin hesabatlarını nəzərdən keçirir, qiymətləndirmə aparır və zəruri hallarda müvafiq qərar qəbul edir;

3.1.18. Fondun ümumi fəaliyyəti haqqında, aktual və elmi-praktiki əhəmiyyət kəsb edən mühüm müsabiqələrin nəticələri haqqında məlumat verir;

3.1.19. internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin edir;

3.1.20. Fondun fəaliyyəti barədə illik hesabatı bu Nizamnaməyə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə və aidiyyəti qurumlara təqdim edir və ümumi informasiyanı mətbuatda dərc etdirir;

3.1.21. elmi tədqiqatlar sahəsində fəaliyyət göstərən ölkə və beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, xarici təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı tədbirlər görür;

3.1.22. qanunvericiliyə uyğun olaraq digər funksiyaları həyata keçirir.

### 4. Fondun hüquqları

4.1. Fondun öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. məqsədlərinə uyğun olaraq layihələrin maliyyələşdirilməsi məsələsini həll etmək;

4.1.2. öz vəzifə və funksiyalarının yerinə yetirilməsi üçün zəruri olan məlumatları və sənədləri qanunvericiliyə uyğun olaraq dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən sorğu vermək yolu ilə əldə etmək;

4.1.3. Fondun fəaliyyətini və qrant layihələrinin mühüm elmi nəticələrini təbliğ etmək;

4.1.4. qanunvericiliyə uyğun olaraq müvafiq təşkilat və elmi qurumlarla əməkdaşlıq əlaqələri qurmaq, elmi-informasiya mübadiləsi aparmaq, razılaşdırılmış şərtlər əsasında müştərək ekspertlər qrupu yaratmaq;

4.1.5. qanunvericiliyə uyğun olaraq regional və beynəlxalq təşkilatlara üzv olmaq;

4.1.6. qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, internet resursları yaratmaq;

4.1.7. layihələr üzrə elmi müəssisə və təşkilatlar, digər qurumlar və fiziki şəxslər tərəfindən müqavilə şərtlərinin pozulması və təyinatdan kənar istifadə halları aşkar edildikdə, bu halların aradan qaldırılması ilə bağlı müqavilə tərəfinə və zəruri hallarda, qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara müraciət etmək;

4.1.8. layihələr üzrə müqavilə şərtlərini pozan elmi müəssisə və təşkilatlarını, digər qurumları və fiziki şəxsləri iki ilədək müddətə Fondun layihələrində iştirakdan məhrum etmək;

4.1.9. qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 5. Fondun vəsaitinin formalaşdırılması və istifadəsi

5.1. Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşdırıla bilər:

5.1.1. Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsindən ayırmalar;

5.1.2. hüquqi və fiziki şəxslər tərəfindən könüllü verilən ianələr;

5.1.3. məqsədlərinə uyğun müxtəlif tədbirlərin təşkilindən əldə edilən gəlirlər;

5.1.4. xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən verilən qrantlar və digər ayırmalar;

5.1.5. qanunvericilikdə qadağan olunmayan digər mənbələr.

5.2. Fondun vəsaiti Azərbaycan manatı və xarici valyutalarla formalaşdırılır.

5.3. Fondun vəsaiti və sərəncamında olan əmlak bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlərə istifadə edilə bilməz.

5.4. Fond sərəncamında olan vəsaitdən bu Nizamnamədə əks olunmuş məqsədlər üzrə həyata keçirilən layihələrə, Fondun bu Nizamnamə ilə müəyyən edilmiş digər məqsədlərinə və Fondun xərclər smetasına uyğun istifadə edir.

5.5. Maliyyə ilinin sonunda Fondun hesabında qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

5.6. Layihələr üzrə qrantlar böyük, orta və kiçikhəcmli, həmçinin qısamüddətli və uzunmüddətli olmaqla, layihələrin məzmununa uyğun olaraq, akademik və təhsil sistemindəki elmi təşkilatların və müəssisələrin, digər qurumların, fiziki şəxslərin müvafiq olaraq statusundan, tabeliyindən və təşkilati-hüquqi formasından, həmçinin müsabiqədə iştirak edən alimlərin yaşından, onların tutduqları vəzifələrdən, elmi adlarından və elmi dərəcələrindən asılı olmayaraq, müəyyənləşdirilmiş elmi prioritetlərə uyğun, şəffaf müsabiqə əsasında ayrılır.

5.7. Layihələrin maliyyələşdirilməsi Fondla müsabiqənin qalibi (elmi rəhbəri) arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Layihənin xərclər smetası, layihənin yerinə yetirilməsi, elmi nəticələrin dərc etdirilməsi və ictimaiyyətə çatdırılması ilə bağlı xüsusi öhdəlikləri nəzərdə tutan müvafiq sənədlər müqaviləyə əlavə olunur.

5.8. Maddi formada verilən bütün qrantların dəyəri Fond üçün maliyyə ili ərzində dövlət büdcəsindən ayrılmış ümumi məbləğin 35 faizindən artıq ola bilməz.

### 6. Fondun idarə edilməsi və fəaliyyətinin təşkili

6.1. Fondun fəaliyyətinə ümumi nəzarət Fondun Himayədarlar Şurası (bundan sonra – Şura) tərəfindən həyata keçirilir.

6.2. Şura beş üzvdən ibarət tərkibdə formalaşdırılır.

6.3. Şuranın sədri və üzvləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təyin edilirlər.

6.4. Şura üzvlərinin səlahiyyət müddəti 4 ildir.

6.5. Şuranın üzvləri Fondun digər orqanlarında təmsil oluna bilməzlər.

6.6. Şuranın üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər.

6.7. Şuranın iclasları ildə iki dəfədən az olmayaraq keçirilir. Şuranın növbədənkənar iclasları Şura üzvlərinin yarıdan çoxunun və ya Fondun icraçı direktorunun təşəbbüsü ilə keçirilə bilər. Şuranın iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. Şuranın qərarları açıq səsvermə yolu ilə iclasda iştirak edən Şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər bölündükdə Şura sədrinin səsi həlledici hesab edilir.

6.8. Şuranın sədr müavini Şuranın iclasında Şuranın üzvləri tərəfindən Şuranın üzvləri sırasından seçilir.

6.9. Şura:

6.9.1. Fondun fəaliyyətinin qanunvericiliyə uyğun olmasına, vəsaitinin formalaşmasına və xərclənməsinə ümumi nəzarəti həyata keçirir;

6.9.2. Fonda əlavə vəsait cəlb edilməsi strategiyasının hazırlanmasında iştirak edir;

6.9.3. layihələrin həyata keçirilməsi məqsədi ilə dövlət dəstəyinin yönəldilməsi daha məqsədəuyğun hesab edilən elmi-tədqiqat sahələri barədə təkliflərini Fondun icraçı direktoruna təqdim edir;

6.9.4. elmi müəssisə və təşkilatlarının və digər hüquqi və fiziki şəxslərin layihələrinin qiymətləndirilməsi məqsədi ilə aidiyyəti dövlət orqanlarının, elmi-tədqiqat müəssisələrinin nümayəndələrindən və digər mütəxəssislərdən (o cümlədən xarici mütəxəssislər cəlb edilməklə) ibarət daimi və ya müvəqqəti ekspert komissiyalarının yaradılmasına və tərkibinə dair tövsiyələr verir;

6.9.5. Fondun icraçı direktorunun təqdimatına əsasən Fondun vəsaitinin istifadə edilməsinin əsas istiqamətlərini, onun illik xərclər smetasının layihəsini və balansını müzakirə edir və tövsiyələr verir;

6.9.6. Fondun fəaliyyəti ilə bağlı Fondun icraçı direktorunun illik hesabatlarına baxır və rəy verir;

6.9.7. səlahiyyətləri daxilində digər vəzifələri həyata keçirir.

6.10. Şura üzvləri aşağıdakı hüquqlara malikdirlər:

6.10.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak etmək;

6.10.2. Şuranın iclasının gündəliyi və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olmaq;

6.10.3. Şurada baxılan məsələlərə dair fikir söyləmək;

6.10.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılması barədə təkliflər vermək;

6.10.5. Şuranın qərarları, iclaslarının protokolları və digər sənədləri ilə tanış olmaq.

6.11. Şura üzvlərinin vəzifələri aşağıdakılardır:

6.11.1. Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmaq;

6.11.2. Şuranın iclaslarını üzrsüz səbəbdən buraxmamaq;

6.11.3. Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməmək;

6.11.4. Şurada baxılan məsələlər haqqında qərar qəbul edilənədək məsələnin mahiyyətinə dair ictimaiyyət qarşısında fikir söyləməmək.

6.12. Şuranın sədri:

6.12.1. Şuranın işini təşkil edir;

6.12.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslarını çağırır və iclaslarında sədrlik edir;

6.12.3. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirləri həyata keçirir.

6.13. Şura sədrinin müavini Şuranın sədri tərəfindən ona həvalə edilmiş vəzifələri yerinə yetirir, Şuranın sədri vəzifələrini icra edə bilmədikdə, onun səlahiyyətlərini həyata keçirir.

6.14. Şuranın hər bir üzvü Şuranın iclasında baxılan məsələlər üzrə şəxsi maraqlarına toxunan, habelə onun qərəzliliyinə əsas verə bilən hallar olduqda, Şuranı məlumatlandırmalı və qərarların qəbul edilməsində iştirak etməməlidir. Belə əsaslar olduqda, Şuranın üzvünə yazılı və ya şifahi formada əsaslandırılmış etiraz edilə bilər.

6.15. Şura üzvünün səlahiyyətlərinə aşağıdakı hallarda Şuranın qərarı ilə vaxtından əvvəl xitam verilə bilər:

6.15.1. öz arzusu ilə Şura üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

6.15.2. bu Nizamnamədə Şura üzvü üçün nəzərdə tutulmuş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

6.15.3. səhhətinə görə vəzifələrini bir ildən artıq müddətdə yerinə yetirə bilmədikdə;

6.15.4. ardıcıl olaraq 4 dəfə üzrsüz səbəbdən Şuranın iclaslarında iştirak etmədikdə;

6.15.5. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

6.15.6. barəsində cinayət işinə bəraətverici əsaslar olmadan xitam verildikdə, habelə məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmə qərarı olduqda;

6.15.7. Şura üzvünün adına ləkə gətirən hərəkətlərə yol verdikdə.

6.16. Fondun fəaliyyətinə rəhbərlik Fondun icraçı direktoru (bundan sonra - İcraçı direktor) tərəfindən həyata keçirilir.

6.17. İcraçı direktor Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

6.18. İcraçı direktor:

6.18.1. Fondun cari fəaliyyətinə rəhbərlik edir və Fondu təmsil edir;

6.18.2. Fondun strukturunu təsdiq edir;

6.18.3. Fondun illik fəaliyyət planını təsdiq edir;

6.18.4. Fondun maliyyə vəsaiti də daxil olmaqla, qanunvericiliyə, o cümlədən bu Nizamnaməyə uyğun olaraq əmlakını idarə edir, müqavilələr bağlayır, səlahiyyətləri daxilində əmrlər, sərəncamlar və göstərişlər verir, onların icrasına nəzarəti həyata keçirir;

6.18.5. işçiləri əmək müqaviləsi əsasında, qanunvericiliyə uyğun olaraq işə qəbul edir, işdən azad edir, onlar barədə qanunvericilikdə nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri tətbiq edir;

6.18.6. Fondun daxili intizam qaydalarını,

*Ardı 3-cü səhifədə*

əməkdaşların davranış kodeksini və səlahiyyətləri daxilində Fondun idarə edilməsi məsələləri ilə bağlı sənədləri təsdiq edir;

6.18.7. Fondun xərclər smetasının layihəsini, vəsaitinin istifadə edilməsinin əsas istiqamətlərinə dair təklifləri hazırlayır və baxılmaq üçün Şuraya təqdim edir;

6.18.8. bu Nizamnaməyə uyğun olaraq müsabiqəyə təqdim olunan layihələrin qiymətləndirilməsini, maliyyə yardımının ayrılmasını, bununla əlaqədar müvafiq əqdlərin bağlanmasını təmin edir;

6.18.9. Fond tərəfindən maliyyələşdirilən layihələrin və digər tədbirlərin icra vəziyyətinə nəzarəti həyata keçirir;

6.18.10. Fondun fəaliyyəti ilə bağlı illik hesabatı hazırlayır, Şuranın müvafiq rəyi ilə birlikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim edir;

6.18.11. Fondun maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət edir və qanunvericiliyə uyğun olaraq auditin keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin edir;

6.18.12. Fondun kargüzarlıq işlərini təşkil edir;

6.18.13. Fondun səmərəli fəaliyyətini təmin etmək məqsədilə cari və perspektiv maddi-texniki təminat məsələlərinin həlli ilə bağlı zəruri tədbirləri həyata keçirir;

6.18.14. Fondun fəaliyyətinin və idarəetməsinin təkmilləşdirilməsi və informasiya təminatının gücləndirilməsi üçün təkliflər hazırlayır və müvafiq tədbirlər həyata keçirir;

6.18.15. öz səlahiyyətləri daxilində Fondun fəaliyyətinə aid qərarların icrası ilə əlaqədar müvafiq tədbirlər görür;

6.18.16. Fondun illik fəaliyyəti haqqında ictimaiyyəti məlumatlandırır;

6.18.17. qanunvericiliyə, o cümlədən bu Nizamnaməyə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.

6.19. Fondun xərclər smetası, ştat cədvəli və işçilərinin aylıq vəzifə maaşları Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

6.20. Fondun işçilərinin say həddi və İcraçı direktorun aylıq vəzifə maaşı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən müəyyən edilir.

**7. Fondun yenidən təşkili və ləğvi**

Fondun yenidən təşkili və ləğvi qanunvericiliyə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilir.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 13 sentyabr tarixli 178-V FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi”nin 6.3-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının tərkibi təsdiq edilsin:

**Şuranın sədri**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

**Şuranın üzvləri**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri

AMEA Naxçıvan Bölməsinin sədri

Naxçıvan Muxtar Respublikasının təhsil naziri

Naxçıvan Dövlət Universitetinin rektoru

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 13 sentyabr 2019-cu il*

*15 Sentyabr Bilik Günüdür*

# Təhsil uğurları parlaq gələcəyin təminatıdır



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixli Fərmanı ilə hər il sentyabrın 15-i ölkəmizdə Bilik Günü kimi qeyd olunur.***

Xalqımız hər zaman elm və təhsilin inkişafına böyük önəm vermişdir. Müdriklərimiz, ziyalılarımız cəmiyyətin tərəqqisini təhsildə görmüş, insanların savadlanması, gənclərin elm, bilik öyrənməsi qayğısına qalmışlar. Azərbaycanda Bilik Gününün yüksək səviyyədə qeyd olunması, yeni dərs ilinə bayram əhval-ruhiyyəsi ilə başlanması da təhsilin cəmiyyət həyatında mühüm yer tutmasının nəticəsidir.

***“Bizim gördüyümüz işlər, təhsil sahəsində həyata keçirdiyimiz islahatlar Azərbaycan dövlətini daha da yüksəltməyə yönəldilibdir”,*** – deyən ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində müəyyənləşdirdiyi təhsil strategiyası ölkəmizdə bu sahənin davamlı inkişafının əsasını qoymuş, müstəqillik illərində isə təhsillə bağlı daha geniş islahatlar həyata keçirilmiş, Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoymuşdur.

Bu gün də ulu öndərin siyasi xəttini bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində təhsilin inkişafı dövlət siyasətinin əsas prioritet istiqaməti kimi müəyyənləşdirilmiş, kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Naxçıvan Muxtar Respublikasında da ulu öndərin müəllifi olduğu təhsil strategiyası uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində son illər muxtar respublikada müasir təhsil infrastrukturu yaradılmışdır. Müstəqillik illərində muxtar respublikada 200-dən çox təhsil müəssisəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir.

Hər il olduğu kimi, bu il də muxtar respublikanın paytaxtı da daxil olmaqla, bütün bölgələrində geniş vüsət alan quruculuq və abadlıq işlərinin önündə təhsil müəssisələrinin tikintisi dayanır. Belə ki, 2019-cu ilin birinci yarısında Şərur rayonunda Kərimbəyli, Ordubad rayonunda Dəstə kənd tam orta məktəbləri üçün binalar şagird və müəllimlərin istifadəsinə verilib. Hazırda Şərur rayon Yeni Havuş, Muğanlı, Muğancıq Mehrab, Xələc, Babək rayon Kültəpə tam orta məktəbləri, Gülşənabad ümumi orta, Ordubad rayon Vənənd, Kəngərli rayon Böyükdüz, Şahbuz rayon Türkeş kənd tam orta məktəbləri üçün binaların tikintisi və ya yenidən qurulması davam etdirilir. Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin tikintisi isə başa çatdırılmışdır.

Muxtar respublikada təhsil müəssisələrinin müasir tədris vasitələri və informasiya texnologiyaları ilə təminatına xüsusi diqqət yetirilir. Artıq məktəblər ən müasir informasiya-kommunikasiya texnologiyaları və zəngin kitabxana fondu ilə təchiz olunmuşdur. Bu günədək ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə və 5500-dən artıq kompüter quraşdırılmışdır. Muxtar respublikanın ümumtəhsil məktəblərinə 600 mindən çox latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat və 3 milyona yaxın dərslik verilmişdir.

Müasir maddi-texniki bazanın formalaşdırılması təhsildə mütərəqqi üsulların tətbiqinə geniş imkanlar açmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası artıq öz bəhrəsini verir. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv dərslər təşkil edilir, şagirdlər elmi biliklərlə yanaşı, milli-mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər.

Muxtar respublikada təhsil müəssisələrinin pedaqoji kadrlarla təminatı sahəsində də ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 14 aprel 2018-ci il tarixli Qərarına uyğun olaraq pedaqoji kadrların müsabiqə yolu ilə işə qəbulu həyata keçirilir. Bu isə gənc kadrların işlə təmin olunmasına, eləcə də ümumtəhsil müəssisələrinin bilikli müəllimlərlə təminatına geniş imkanlar açmışdır. Ötən tədris ilindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən 4 müsabiqədə yüksək nəticə göstərən 215 müəllim, 13 psixoloq, 7 uşaq birliyi təşkilatı rəhbəri, 1 kitabxana müdiri, 1 tərbiyəçi və 7 laborant işlə təmin olunmuşdur.

Muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin





həftəlik dərs yükü 1,5, vəzifə maaşı 2 dəfə, cari il sentyabrın 1-dən isə bu kateqoriyadan olan müəllimlərin aylıq vəzifə maaşları əlavə olaraq orta hesabla 20 faiz artırılmışdır.

Bu gün Naxçıvanda qabaqcıl təhsil mühiti formalaşdırılmış, şagirdlərin təhsilə marağı artmışdır. 2018-2019-cu tədris ilində məktəbi yüksək nəticələrlə başa vuran IX sinif məzunlarından 69-u fərqlənmə attestatına, XI sinif məzunlarından 13-ü “Qızıl”, 16-sı “Gümüş” medala, 45-i isə fərqlənmə attestatına layiq görülmüşlər.

Gənclərimiz yeni istifadəyə verilən məktəb binalarında qurulan qabaqcıl texnologiyalardan – sürətli internetə çıxışı olan kompüter, elektron lövhə, elektron kitabxananın imkanlarından yararlanmaqla ən müasir şəraitdə təhsil alırlar. İnnovativ inkişafa xidmət edən startap layihələrinin həyata keçirilməsi gənclərin innovasiya mühitinə inteqrasiyasını təmin edir. Yaradılan təhsil mühitinin nəticəsidir ki, ümumtəhsil məktəblərini bitirən məzunlar ali və orta ixtisas məktəblərinə qəbulda yüksək nəticələr göstərir. Bu il muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən 2564 məzun ali və orta ixtisas məktəblərinə qəbul üçün sənəd vermiş, onlardan 1500-ü ali məktəblərə, 200-ü müxtəlif ali hərbi məktəblərə, 245-i isə orta ixtisas məktəblərinə qəbul olunmuşdur. Ümumilikdə, tam orta təhsil bazasından ali və orta ixtisas məktəblərinə qəbul olan məzunların sayı 1945 olmuşdur ki, bu da sənəd verənlərin 70 faizi deməkdir. Tələbə adını qazananların 281-i 500-700 arası bal toplamış, onlardan 4-ü Prezident təqaüdünə layiq görülmüşdür.

Məktəblərdə şagirdlərin elmi biliklərlə yanaşı, sağlam və yüksək vətənpərvərlik ruhunda böyüdülməsinə də xüsusi qayğı ilə yanaşılır, hərbi hazırlıq və idman dərslərinə mühüm əhəmiyyət verilir. Bunun nəticəsidir ki, son illər gənclər arasında hərbi təhsilə maraq da xeyli artmışdır. 2019-cu ildə muxtar respublikanın ümumtəhsil məktəblərindən Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün 449 şagird sənəd vermişdir. Həmin şagirdlərdən 142-si Hərbi Liseyə qəbul olaraq kursant adını qazanmışdır.

Əldə olunmuş bu uğurlar muxtar respublikamızda təhsilə, təhsil işçilərinə göstərilən yüksək dövlət qayğısı nəticəsində mümkün olmuşdur. Bu isə intellektual gələcəyə doğru atılan addım kimi hər il Bilik Gününün əsl bayram əhval-ruhiyyəsi ilə qeyd olunmasına əsas verir. Hər ötən təhsil ilini uğurlarla başa vuran məktəblərimiz daha böyük nailiyyətlər qazanmağa səy göstərir, bu nailiyyətlərin əsasını elə ilk addımlardan – Bilik Günündən qoyurlar. Bu gün ümumtəhsil məktəblərində yaradılan şərait, təhsil işçilərinə göstərilən hərtərəfli dövlət qayğısı, bir sözlə, muxtar respublikamızda insan kapitalına böyük önəm verilməsi hər bir valideyndə övladının yaxşı təhsil alacağına, onun gələcəyinin etibarlı əllərdə olduğuna əminlik yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Bu gün dünyada o ölkələr inkişaf edərək irəli gedirlər ki, orada təhsilə daha çox sərmayə qoyulur. Çünki təhsilə qoyulan sərmayə xalqların və ölkələrin gələcəyinə qoyulan sərmayədir. Vətənpərvər gənclik isə o gələcəyin ən etibarlı təminatçısıdır. Əgər ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə yetişən gənclik müstəqil Azərbaycanın bugünkü inkişafını təmin etmişdirsə, bu gün yetişən gənclik də bu inkişafın gələcəkdə davamının təminatçıları olacaqdır”.***

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## Muriel Peneveyre: Naxçıvan çoxşaxəli iqtisadiyyata malikdir



***“Mən bu ilin iyul ayının sonunda İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri təyin edilmişəm. Çox sevinirəm ki, Azərbaycanın bölgələrindən ilk dəfə məhz Naxçıvana səfər etmişəm”.***

Bu sözləri “Şərq qapısı” qəzetinə müsahibəsində Naxçıvan Muxtar Respublikasında rəsmi səfərdə olan İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Muriel Peneveyre deyib.

O bildirib ki, burada bir sıra yüksək səviyyəli görüşlər keçirib. Görüşlərdə gələcək əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb. Səfir Naxçıvandakı istehsal və sənaye müəssisələrində də olub, İsveçrə hökumətinin dəstəyi ilə bərpa olunan kəhrizə baxıb. O, kəhrizin yaxşı fəaliyyət göstərdiyini və əhalinin də ondan səmərəli şəkildə istifadə etdiyini vurğulayıb. Muriel Peneveyre səfər çərçivəsində Naxçıvan Biznes Mərkəzi ilə də tanış olduğunu, çoxşaxəli iqtisadiyyata malik olan Naxçıvan barədə ətraflı məlumat aldığını bildirib.

“Səfərim birgünlük olduğundan muxtar respublika ilə tanışlıq imkanım o qədər də çox olmadı. Ümidvaram ki, mən buraya bir daha səfər edəcək və qədim diyarla daha da yaxından tanış olmaq imkanı qazanacağam”, – deyən səfir ona göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

**Tural AĞAYEV**

## "Şərq qapısı" qəzetinin yeni internet saytının təqdimatı olub




*Sentyabrın 13-də "Şərq qapısı" qəzetinin yenilənmiş internet saytının təqdimatı olub.*

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək bildirib ki, muxtar respublikamızda bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş kütləvi informasiya orqanlarını da əhatə edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikanın kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların maddi-texniki bazası daha da gücləndirilib. 2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni binanın istifadəyə verilməsi və müasir mətbəə avadanlıqlarının quraşdırılması sayəsində muxtar respublikanın bütün qəzet və jurnalları bu gün yüksək poliqrafik keyfiyyətlə nəşr olunur.

Muxtar respublikada elektron medianın inkişafı da əsas vəzifələr sırasındadır. Naxçıvan Dövlət Teleradiosunun internet saytının yaradılması, televiziya və radionun internetdən yayımının təşkil edilməsi, "Nuhçıxan" İnformasiya Agentliyinin fəaliyyətə başlaması, mərkəzi icra hakimiyyəti orqanlarının saytlarında mətbuat xidməti bölmələrinin fəaliyyətinin təmin edilməsi, şəhər və rayon qəzetlərinin sosial şəbəkə hesablarının açılması muxtar respublikada informasiya-məlumatlandırma işinin günün tələbləri səviyyəsində qurulmasına imkan verir. Eyni zamanda muxtar respublikanın yaşayış məntəqələrinə fiber-optik kabel xətlərinin çəkilişi və sürətli internetə çıxış imkanının yaradılması insanların informasiya tələbatının tam dolğun ödənilməsinə hesablanıb. Bu gün "Şərq qapısı" qəzetinin internet saytının tamamilə yenilənərək istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır.

"Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova bildirib ki, "Şərq qapısı" qəzeti müasir tariximizin salnaməçisidir. Muxtar respublikamızda kütləvi informasiya vasitələrinə göstərilən dövlət qayğısı "Şərq qapısı" qəzeti redaksiyasını və kollektivi də əhatə etmişdir. Qəzetin maddi-texniki bazasının gücləndirilməsi, hərtərəfli yaradıcılıq şəraitinin yaradılması, işçilərin əmək haqlarının artırılması fəaliyyətin günün tələbləri səviyyəsində qurulmasına imkan verir. Müasir informasiya əsri isə elektron jurnalistikanı



günün aktuallığına çevirmişdir. Bu gün hər bir mətbuat orqanının reytinqi, oxucu kontingenti onun çap məhsulu kimi tirajı ilə yanaşı, həm də internet saytındakı materialların izlənmə, bəyənilmə və paylaşılma sayı ilə ölçülür. Muxtar respublikada kütləvi informasiya vasitələri üçün yüksək maddi-texniki təchizatın yaradılması, mətbuatın yüksək peşəkarlıq və poliqrafik keyfiyyətlə nəşrə hazırlanması, üstəlik, diyarımızda tələbkar elektron media izləyicilərinin də sayının artması "Şərq qapısı" qəzeti saytının da təkmilləşdirilərək yenilənməsi aktuallığını ortaya çıxarmışdı. Buna görə də "Şərq qapısı"nın internet saytı tamamilə yenilənib, həm funksionallıq, həm də dizayn baxımından müasir tələblərə uyğunlaşdırılmışdır. Mehriban Sultanova qəzetin fəaliyyəti üçün yaradılan hərtərəfli şəraitə görə kollektiv adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli bildirmişdir ki, muxtar respublikamızın mətbu orqanları içərisində hər zaman ön mövqeyi ilə seçilən "Şərq qapısı" qəzeti böyük bir inkişaf yolu keçmişdir. Oxucularını maraqlı və obyektiv məlumatlarla təmin edən qəzet bu gün yenilənmiş internet saytı ilə fəaliyyətinin yeni mərhələsinə qədəm qoyur. Naxçıvanla bağlı informasiyalara tələbatın günbəgün artdığı bir dövrdə qəzetin yenilənmiş internet saytı elektron medianın imkanlarından daha səmərəli yararlanmağa imkan verir. İnanırıq ki, "Şərq qapısı" qəzeti məhz bu imkanlardan bəhrələnərək muxtar respublikamızın tanıdılmasına, təbliğinə öz töhfəsini verəcək.

Tədbirdə "Şərq qapısı" qəzeti baş redaktorunun müavini Rauf Əliyev, "Nuhçıxan" İnformasiya Agentliyinin baş redaktoru Səməd Canbaxşiyev və qəzetin əməkdaşı Əli Cabbarov çıxış etmişlər.

Sonra Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşı Şahin İsmayılov yenilənmiş internet saytını təqdim etmişdir. Bildirmişdir ki, sayt həm funksionallıq, həm də dizayn baxımından müasir tələblərə uyğunlaşdırılmış, əvvəlki arxivi qorunub saxlanılmışdır. Lisenziyalı proqramlarla təkmilləşdirilən saytın yeni versiyasında "Ana səhifə", "Rəsmi xronika", "İctimai-siyasi", "İqtisadiyyat", "Humanitar", "İdman", "Əlaqə", "Elanlar", "Rəsmi sənədlər", "Fotolar" və "Videoqalereya" bölmələri yaradılmışdır. "Fotolar" bölməsi Naxçıvanla bağlı fotoşəkillərin sosial şəbəkələrdə operativ paylaşılmasına imkan verir. "Videoqalereya" bölməsində muxtar respublikanın qədim tarixi və tarixi abidələri, müasir inkişafı, təbiəti, zəngin turizm potensialı ilə bağlı videomateriallar yerləşdirilib. Saytın "Xəbərlər" bölməsində materiallar əvvəlkindən fərqli olaraq üç dildə – Azərbaycan, ingilis və rus dillərində yayımlanacaqdır. Bundan başqa, əvvəlki saytda qəzetin yalnız gündəlik elektron variantını əldə etmək mümkün idisə, artıq saytın yenilənmiş versiyasında oxucular qəzetin birhəftəlik çapdan çıxan nömrələri ilə tanış ola biləcəklər. "Şərq qapısı" qəzetinin "Instagram" və "Facebook" səhifələri də yaradılmışdır. Artıq yenilənmiş saytdakı materialları sosial şəbəkə hesablarında operativ şəkildə paylaşmaq mümkündür.

Şahin İsmayılov qeyd etmişdir ki, saytın yenilənmiş versiyasının əsas üstün cəhətlərindən biri də mobil telefonlar üçün interfeysinin də hazırlanmasıdır. *serqqapisi.az* saytının serveri Rabitə və Yeni Texnologiyalar Nazirliyində yerləşir və təhlükəsizliyinə zəmanət verilir.

**Səbuhi HƏSƏNOV**

## Avqust ayında muzeyləri 59 mindən çox tamaşaçı ziyarət edib

Muxtar respublikanın mədəniyyət müəssisələrində əlamətdar və tarixi günlərlə bağlı mədəni-kütləvi tədbirlərin keçirilməsi avqust ayında da davam etdirilmişdir. Ötən ay Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Naxçıvan Dövlət Filarmoniyasına hədiyyə edilmiş qədim musiqi alətlərinin təqdimat mərasimi keçirilmişdir.

Ötən ay muxtar respublikanın muzeylərini 22 mindən çoxu əcnəbi vətəndaş olmaqla, 59 mindən çox tamaşaçı ziyarət etmişdir. Muxtar respublikanın əksər kitabxanalarında və klub müəssisələrində kitab müzakirələri, mütaliə və nağıl günləri keçirilmiş, kitab sərgiləri təşkil olunmuş, "Yay oxu zalı"nın fəaliyyəti davam etdirilmişdir. Cəlil Məmmədquluzadənin 150 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən Naxçıvan şəhərindəki yaşayış binalarının həyətində keçirilən "Sizi deyib gəlmişəm" adlı kitab sərgiləri maraqla qarşılanmışdır. Səyyar kitabxana xidmətinin təşkili ilə bağlı aparılmış iş ötən ay da davam etdirilmiş, 22 nəfərə səyyar kitabxana xidməti göstərilmişdir. Muxtar respublikanın kitabxanalarına 50 adda 59 nüsxə çap məhsulu daxil olmuş, kitabxanalarda yeni oxucu sayı 258, oxucu gəlişi 3 min 726, kitab verilişi 10 min 475 nüsxə təşkil etmişdir. Virtual oxu üçün elektron kataloqda kitabların sayı 12 min 658-dən 13 min 248-ə çatdırılmışdır.

Avqust ayında muxtar respublikanın klub müəssisələrində tarixi və əlamətdar günlərlə bağlı mədəni-kütləvi tədbirlər keçirilmiş, Ordubad rayonunun Dırnıs kəndində "Xalq yaradıcılığı günü", rayon mədəniyyət şöbələrinin təşkilatçılığı ilə konsert proqramları təşkil olunmuşdur. Babək rayonunun Yarımca, Ordubad rayonunun Tivi və Şahbuz rayonunun Qızıl Qışlaq kənd mərkəzlərində Azərbaycan filmləri nümayiş etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Güləş birinciliyi başa çatıb

*Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında 2007-2008-ci illər təvəllüdlü yeniyetmələr arasında sərbəst güləş üzrə şəhər birinciliyi keçirilib.*



Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birinciliklə 11 çəki dərəcəsi üzrə 50 idmançı öz qüvvəsini sınayıb.

Dünya Güləş Birliyinin mövcud qaydalarına əsasən keçirilən yarışın yekununa gəlincə Turqay Məmmədli (26 kiloqram), Sinan Rzayev (29 kiloqram), İbrahim Lahıcov (32 kiloqram), Elmir Əsgərov (35 kiloqram), Pərviz Ağayev (38 kiloqram), Kazım Cəfərov (42 kiloqram), Xəzər Abdullayev (46 kiloqram), Elnur Məmmədov (50 kiloqram), Turan Həsənov (53 kiloqram), Elxan Əhmədli (58 kiloqram) və Süleyman Məmmədov (63 kiloqram) öz çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi oldular.

Sonda hər çəki dərəcəsində fərqlənən idmançılar təşkilatçıların diplomları ilə mükafatlandırıldılar.

## "Mənim yay tətilim" adlı uşaq rəsm sərgisi açılıb

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda muxtar respublikanın 95 illiyinə həsr edilmiş uşaqlar arasında keçirilən İRS "Mənim yay tətilim" adlı sərgi-müsabiqənin yekun tədbiri olub.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva açaraq vurğulayıb ki, muxtar respublikamızda uşaqlara diqqət və qayğı göstərilir. Mədəniyyətin hər bir sahəsində istedadı və bacarığı olan uşaqların sayı getdikcə artır. Bu, rəssamlıqda da özünü göstərir. Mütəmadi olaraq uşaqlar arasında keçirilən ustad dərsləri, rəsm-sərgi müsabiqələri onların bu sahəyə marağını artırır, həmçinin uşaqlara öz istedad və bacarıqlarını nümayiş etdirmək imkanı verir. Bugünkü sərgi-müsabiqə də məktəblilərin yay tətili ərzində diqqətlərini çəkən hadisələri öz düşüncələrində formalaşdıraraq əks etdirmələri və bacarıqlarının inkişafı məqsədilə həyata keçirilir. Nümayiş etdirilən rəsm əsərlərində onlar yay istirahətlərini və tətildə yaddaqalan hadisələri müxtəlif üsullarla kağız üzərinə köçürüblər.

Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Heyran Əhmədova çıxışında qeyd edib ki, bu gün muxtar respublikada təhsilin inkişafına göstərilən diqqət və qayğı nəticəsində ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin uğurları hər il daha da artır. Onlar arasında mütəmadi keçirilən bilik yarışmaları, intellektual oyunlar istedadlı uşaqların üzə çıxarılmasında mühüm rol oynayır. Keçirilən rəsm sərgisi də belə tədbirlərin davamıdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin nümayəndəsi İman Alrzayev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Əjdərəli Qafarov çıxış ediblər.

Qeyd edək ki, sərgidə 71 şagirdin 115 rəsm əsəri nümayiş olunub. Sərgidə qaliblərə diplomlar, fəxri diplomlar, təşəkkürnamələr və psixoloq-yazıçı Sevda Kərimovanın "Mavi portağal" adlı kitabı təqdim edilib.

Sərgi sentyabrın 18-dək davam edəcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Seçimlərdə fərqlənən futbolçularla məşqlərə start verilib

Məlum olduğu kimi, ötən həftə Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə 13-14 yaşlı futbolçular arasında seleksiya xarakterli turnir keçirilib. Turnirdə fərqlənən istedadlı futbolçular isə Naxçıvanın əsas komandasına cəlb olunublar. Artıq həmin futbolçularla məşqlərə start verilib.



Naxçıvan Muxtar Respublika Stadionunda təşkil olunan məşqlərdə 24 futbolçu iştirak edir. Futbol Federasiyasının böyük məşqçisi Əsgər Abdullayevin rəhbərliyi altında təşkil edilən təlim-məşq prosesində daha çox texniki-taktiki məşqlərə üstünlük verilir. Həftədə 5 dəfə keçirilən məşqlər oktyabr ayının 10-dək davam edəcək.

Uşaq yaş qrupları üzrə keçiriləcək çempionat oyunlarında fərqlənən futbolçular da əsas komandaya cəlb olunacaqlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 616